AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

"Dövlət Proqramı İdarəetmə Qrupu"

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2028-ci illər üçün Dövlət Proqramı"

**Xaricdə təhsil**

**Tədris ili: 2026/2027-ci tədris ili üzrə**

**Son müraciət tarixi:**

**05.06.2026, saat 18:00**

| | | |
|---|---|---|
| **Hədəf:** | → | Gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, onların Azərbaycan Respublikasının gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəka kadrlar kimi hazırlanmasını təmin etmək |
| **Hədəf qrupu:** | → | İstedadlı, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektivli gənclər |
| **Prioritet ixtisas istiqamətləri, universitetlər və proqramların siyahısı:** | → | Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş siyahı ilə buradan tanış ola bilərsiniz. **Qeyd edək ki, namizədlər siyahıda yer alan və yalnız bakalavriat/magistratura/doktorantura səviyyəsi üçün diplom verən proqramlara müraciət edərək qəbul sənədi almalı və Dövlət Proqramına sənəd qəbulu zamanı təqdim etməlidir.**<br>Dövlət Proqramının 6.1-cı bəndində verilən 15 prioritet ixtisas sahələri əsas götürülməklə müvafiq siyahıda qeyd edilən universitetlərdən 2026/2027-ci tədris ilində "Times Higher Education", "QS World University Rankings" və "Academic Ranking of World Universities (Shanghai)" reytinq sistemində ilk 200-lükdə yer alan ali təhsil müəssisələrinin **doktorantura** proqramlarına qəbul almış şəxslər Dövlət Proqramına müraciət edə bilərlər.<br>15 prioritet ixtisas sahələri ilə yanaşı, 2026/2027-ci tədris ilində yuxarıda qeyd olunan reytinq sistemlərində yalnız "universitetlər üzrə top 10"da yer almış ali təhsil müəssisələri tərəfindən təqdim olunan, siyahıda yer almayan istənilən ixtisas sahəsi üzrə bakalavriat, magistratura və doktorantura proqramlarına qəbul almış şəxslər Dövlət Proqramına müraciət edə bilərlər. Bu yanaşma 2026/2027-ci tədris ilində UCL üçün tətbiq olunmayacaq və yalnız siyahıda olan proqramlar üzrə müraciətlər qəbul olunacaq. |

| | | |
|---|---|---|
| | | "Executive", "distant", "non-degree" və "joint degree" təhsil formaları Dövlət Proqramı tərəfindən maliyyələşdirilmir. Nəzərə alınmalıdır ki, Dövlət Proqramı çərçivəsində sənəd qəbulu dövründə yalnız ənənəvi təhsil (offline) proqramları üzrə əldə edilmiş qəbul sənədləri dəyərləndirilməyə uyğun hesab edilir. |
| **Müddət:** | → | Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi təhsil aldıqları xarici ali təhsil müəssisələri tərəfindən müəyyən edilən minimum normativ təhsil müddətini əhatə edir. |
| **Qarşılanan xərclər:** | → | Proqram iştirakçılarının təhsilinin maliyyələşdirilməsi aşağıdakı xərclər üzrə həyata keçirilir:<br>• təhsil xərcləri;<br>• viza və təhsil aldığı ölkədə qeydiyyat xərcləri;<br>• aylıq yaşayış xərcləri;<br>• tibbi sığorta xərcləri;<br>• beynəlxalq nəqliyyat xərcləri;<br>• bank və plastik kart xərcləri.<br><br>Ətraflı: **Müvafiq maliyyələşdirilmə qaydalarının 2-ci maddəsi.** |
| **İlkin seçim meyarları (bakalavriat səviyyəsi üzrə):** | → | • Namizədin cari tədris ilində ümumtəhsil müəssisələrinin buraxılış sinfind (XI sinif və ya xaricdə təhsil aldıqda müvafiq buraxılış sinfi) təhsil alması v ya tam orta təhsilə malik olması;<br>• Namizədin xarici ali təhsil müəssisəsinə qəbul olunması;<br>• Namizədin xarici ali təhsil müəssisəsində bakalavriat səviyyəsi üzrə təhs almaq istədiyi və ya təhsil aldığı ixtisasın Azərbaycan Respublikası Elm v Təhsil Nazirliyi tərəfindən müəyyən olunan prioritet ixtisas sahələri v nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının siyahısınd göstərilən ixtisasa uyğun olması;<br>• Namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini dillər üzr ümumavropa çərçivə sənədinə (The Common European Framework o Reference for Languages - CEFR) uyğun olaraq ən azı C1 səviyyəsind bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMƏR) malik olması;<br>• Namizədin ölkənin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələb qəbulu üzrə aparılan qəbul imtahanları çərçivəsində müraciət etdiyi sahəy uyğun olaraq texniki və texnoloji, təbiət, kənd təsərrüfatı, səhiyyə, rifah v xidmət, əsas (baza ali) tibb təhsili və xüsusi təyinatlı ixtisas qrupları üzr yekun olaraq ən azı 400, digər sahələr üzrə ən azı 550 bal toplaması.<br><br>Ətraflı: **Müvafiq seçim qaydalarının 2-ci maddəsi.** |

| | | |
|---|---|---|
| **İlkin seçim meyarları** **(magistratura səviyyəsi üzrə):** | → | • Namizədin cari tədris ilində ali təhsil müəssisələrinin sonuncu tədris ilində təhsil alması və ya bakalavr ali peşə-ixtisas dərəcəsinə malik olması (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınması);<br>• Namizədin xarici ali təhsil müəssisəsinə qəbul olunması;<br>• Namizədin xarici ali təhsil müəssisəsində magistratura səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisasın Nazirlik tərəfindən müəyyən olunan prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının siyahısında göstərilən ixtisasa uyğun olması;<br>• Namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini dillər üzrə ümumavropa çərçivə sənədinə (The Common European Framework o Reference for Languages - CEFR) uyğun olaraq ən azı C1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMƏR) malik olması;<br>• Namizədin bakalavriat təhsil səviyyəsi üzrə Azərbaycan Respublikas Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlə Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkil Qaydaları"na əsasən müəyyən edilmiş Ümumi Orta Müvəffəqiyyə Göstəricisinin (ÜOMG) 81 bal və ya ondan yuxarı olması (və ya xaricdə al təhsil aldıqda digər qiymətləndirmə şkalaları üzrə ekvivalentliyin təmin olunması).<br><br>Ətraflı: <u>Müvafiq seçim qaydalarının 2-ci maddəsi.</u> |
| | | |
| **İlkin seçim meyarları** **(doktorantura səviyyəsi üzrə):** | → | • Namizədin cari tədris ilində magistratura səviyyəsi üzrə ali təhsil müəssisələrinin sonuncu tədris ilində təhsil alması və ya magistr ali elmi-ixtisas dərəcəsinə malik olması (xaricdə ali təhsil aldıqda kvalifikasiyasının tanınması);<br>• Xarici ali təhsil müəssisəsinə təhsil haqqı ilə bağlı depozitin ödənilməsi, namizəd tərəfindən transkriptin və ya əvvəlki təhsil səviyyəsi üzrə diplomun təqdim edilməsi istisna olmaqla, namizədin xarici ali təhsil müəssisəsinə şərtsiz qəbul olunması;<br>• Namizədin xarici ali təhsil müəssisəsində doktorantura səviyyəsi üzrə təhsil almaq istədiyi və ya təhsil aldığı ixtisasın Nazirlik tərəfindən müəyyən olunan prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının siyahısında göstərilən ixtisasa uyğun olması;<br>• Namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini dillər üzrə ümumavropa çərçivə sənədinə (The Common European Framework of Reference for Languages - CEFR) uyğun olaraq ən azı C1 səviyyəsində bilməsinə dair beynəlxalq səviyyəli dil sertifikatına (ALPT, DUOLINGO, CILS, DELE, DELF, HSK, IELTS, JLPT, TestDAF, TOEFL, TOPIK, TÖMER) malik olması;<br>• Namizədin Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisəsində təhsilini başa çatdırdıqdan dərhal sonra Azərbaycan Respublikasının ali təhsil müəssisəsində əsas iş yeri olmaqla ən azı 5 (beş) il müddətinə əmək fəaliyyətinə cəlb edilməsi üçün əmək müqaviləsi bağlamağa razılığının |

| | | |
|---|---|---|
| | | olması;<br>• Azərbaycan Respublikası ali təhsil müəssisəsinin namizədin xarici ali təhsil müəssisəsində təhsili başa çatdıqdan dərhal sonra əmək fəaliyyətinə cəlb edilməsi üçün onunla əmək müqaviləsi bağlamağa razılığının olması;<br><br>Ətraflı: **Müvafiq seçim qaydalarının 2-ci maddəsi.** |
| | | |

| | | Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|---|---|
| | | 1. Ümumitəhsil müəssisələrinin buraxılış sinfində təhsi aldığına dair **arayış v ya** tam orta təhsi haqqında **attestatır surəti**<br><br>**Qeyd:** Orta ixtisas təhsili üzrə təhsil alan namizədlər üçün təhsil aldığına dair arayış və ya orta ixtisas təhsili haqqında diplomun surəti | | |
| **Müraciət üçün tələl olunan sənədlər** **(bakalavriat səviyyə üzrə):** | → | **2. Qəbul sənədi**<br><br>**Qeyd:** Hazırda təhsil alan namizədlər üçün təhsil aldıqlarına dair müvafiq arayış | İngilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdic edilmiş Azərbaycan dilinə tərcüməs təqdim edilməlidir. | Minimum normativ təhsil müddəti, dərslərin başlama və proqnozlaşdırılan məzuniyyət tarixi göstərilməsi tövsiyə olunur. |
| | | 3. Beynəlxalq səviyyəli **dil sertifikatının** surəti | C1 səviyyəsində | Namizədin təhsil alacağ xarici ali təhsil müəssisəsinin tədris dilin bilməsinə dair sertifika təqdim etməlidir. |
| | | 4. **Hərbi bilet** və ya ASAN xidmətdən əldə olunan hərbi xidmətdən möhlət hüququ haqqında arayış | | |

| | | Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|---|---|
| | | 5. **DİM qəbul** imtahanının nəticəsi | | Namizədin ölkənin al təhsil müəssisələrinin bakalavriat səviyyəsina tələbə qəbulu üzrə aparılan qəbul imtahanlar çərçivəsində müraciə etdiyi sahəyə uyğun olaraq texniki və texnoloji təbiət, kənd təsərrüfatı səhiyyə, rifah və xidmət əsas (baza ali) tibb təhsil və xüsusi təyinatlı ixtisas qrupları üzrə yekun olaraq ən azı 400, digər sahələ üzrə ən azı 550 ba toplamalıdır. |
| | | **6. Sağlamlıq haqqında arayış** | Sağlamlıq haqqında arayışın forması AZS-086/1 olmalıdır. | |
| | | 7. **Beynəlxalq təhsil proqramının** (IB, A-level, AP) göstəricisini təsdiq edən arayışın surəti | Olduğu təqdirdə | **Üstünlükdür.** Müvafiq meyarlara uyğun arayış (minimum və maksimum göstəriciləri aralığında) təqdim edən namizədlərdən **beynəlxalq dil sertifikatı** və **DİM qəbul imtahanın nəticəsi** tələb olunmur. |
| | | 8. **Beynəlxalq olimpiada** qalibi (bürünc, gümüş, qızıl) olduğunu təsdiq edən sənədin surəti | Olduğu təqdirdə | **Üstünlükdür.** Beynəlxalq fənn olimpiadlarından ən azı birinin qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş namizədlər **DİM qəbul imtahanın nəticəsi tələb olunmur və müsahibə mərhələsindən azaddır.** |

| | | Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|---|---|
| | | 9. **Beynəlxalq səviyyəd tanınan imtahan (SAT/ACT)** göstəricisin təsdiq edən arayışın surəti | Olduğu təqdirdə | **Üstünlükdür.** SAT və ya ACT imtahanlarının birindən ən azı 75% nəticəsi olan namizədlərdən **DİM qəbul imtahanının nəticəsi tələb olunmur.** |
| | | Ətraflı: Müvafiq seçim qaydalarının 3-cü maddəsi. | | |

| | | Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|---|---|
| | | 1. **Bakalavr diplomunun surəti**/hazırda sonuncu tədris ilində təhs aldığını sübut edən müvafiq **arayış** | | |
| | | 2. Bakalavr təhsili xaric universitetdə alındığ təqdirdə, xarici al təhsilə aid **kvalifikasiyanın tanınmasına dair şəhadətnamə** | | |
| **Müraciət üçün tələb olunan sənədlər** **(magistratura səviyyə üzrə):** | → | 3. **Qəbul sənədi**<br><br>**Qeyd:** Hazırda təhsil alan müraciətçilər üçün təhs aldıqlarına dair müvafiq arayış. | İngilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi | Minimum normativ təhsil müddəti, dərslərin başlama və proqnozlaşdırılan məzuniyyət tarixi göstərilməsi tövsiyə olunur. |
| | | 4. **Tövsiyə məktubları** | Ən azı 2 ədəd | Hər iki tövsiyə məktubu ərizəçinin magistratura səviyyəsi üzrə təhsil alma bacarıqları barədə rəyi özündə ehtiva etməli, imzalı şəkildə təqdim edilməli və tövsiyə məktublarından biri akademik olmalıdır. |
| | | 5. **Beynəlxalq səviyyəli dil sertifikat**ının surəti | C1 səviyyəsində | Namizədin təhsil alacağı xarici ali təhsil müəssisəsinin tədris dilini bilməsinə dair sertifikat təqdim edilməlidir. |
| | | 6. **Transkriptin surəti** | **ÜOMG 81+** | ÜOMG (Ümumi Orta Müvəffəqiyyət Göstəricisi) göstərilməklə |

| Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|
| 7. **Hərbi bilet** və ya ASAN xidmətdən əldə olunan hərbi xidmətdən möhlət hüququ haqqında arayış | | |
| **8. Sağlamlıq haqqında arayış** | Sağlamlıq haqqında arayışın forması AZS-086/1 olmalıdır. | |
| 9. **"Yüksəliş" müsabiqəsinin** qalibi olduğunu təsdiq edən sənədin surəti | Olduğu təqdirdə | **Üstünlükdür.** "Yüksəliş müsabiqəsi"nin qalibi olmuş namizədlər **ÜOMG tələbindən və müsahibə mərhələsindən azaddır.** |

Ətraflı: Müvafiq seçim qaydalarının 3-cü maddəsi.

| | | Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|---|---|
| **Müraciət üçün tələb olunan sənədlər (doktorantura səviyyəsi üzrə):** | | 1. **Magistratura diplomunun surəti**/hazırda sonuncu tədris ilində təhsilaldığını sübut edənmüvafiq **arayış** | | |
| | | 2. Magistr təhsili xarici universitetdə alındığı təqdirdə, xarici alitəhsilə aid **kvalifikasiyanın tanınmasına dair şəhadətnamə** | | |
| | | 3. **Qəbul sənədi**<br><br>**Qeyd:** Hazırda təhsil alan müraciətçilər üçün təhsil aldıqlarına dair müvafiq arayış. | İngilis, rus və türk dillərindən başqa digər dillərdə olan sənədlərin notariat qaydasında təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsi | Minimum normativ təhsil müddəti, dərslərin başlama və proqnozlaşdırılan məzuniyyət tarixigöstərilməsi tövsiyə olunur. |
| | | 4. **Tövsiyə məktubları** | Ən azı 2 ədəd | Hər iki tövsiyə məktubu ərizəçinin doktorantura səviyyəsi üzrə təhsil alma bacarıqları barədə rəyi özündə ehtiva etməli, imzalı şəkildə təqdim edilməli və tövsiyə məktublarından biri akademik olmalıdır. |
| | | 5. **Beynəlxalq səviyyəli dil sertifikat**ının surəti | C1 səviyyəsində | Namizədin təhsil alacağıxarici ali təhsilmüəssisəsinin tədris dilini bilməsinə dair sertifikat təqdim edilməlidir. |
| | | **6.Ərizə**<br><br>**Qeyd**: Notorial Qaydada təsdiq edilməlidir. təsdiq edilmiş ərizəsi; | | Namizədin təhsilini bitirdikdən sonra razılıq məktubu əldə etmiş ali təhsil müəssisəsində əsas iş yeri olmaqla ən azı 5 (beş) il müddətinə əmək fəaliyyəti göstərməsinə dair ərizə təqdim edilməlidir. |

| Sənədin adı | Tələb | Qeyd |
|---|---|---|
| **7. Razılıq məktubu**<br><br>**Qeyd:** Yerli ali təhs müəssisələrinin birindən əldə olunmalıdır. | | Namizədin təhsili başa çatdıqdan dərhal sonra əsas iş yeri olmaqla əmək fəaliyyətinə cəlb edilməsi üçün onunla ən azı 5 (beş) il müddətinə əmək müqaviləsi bağlamağa razılıq verən yerli ali təhsil müəssisəsindən əldə olunan məktubun təqdim edilməsi |
| **8. Sağlamlıq haqqında arayış** | Sağlamlıq haqqında arayışın forması AZS-086/1 olmalıdır. | |
| 9. **“Yüksəliş” müsabiqəsinin** qalibi olduğunu təsdiq edən sənədin surəti | Olduğu təqdirdə | **Üstünlükdür.** “Yüksəliş müsabiqəsi”nin qalibi olmuş namizədlər **müsahibə mərhələsindən azaddır.** |

Ətraflı: [**Müvafiq seçim qaydalarının 3-cü maddəsi.**]

| | | |
|---|---|---|
| **Müraciət proseduru:** | → | 1. Müraciət Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Şəxsi Kabinet Portalı vasitəsi ilə həyata keçirilir:<br>2. Müraciət etmədən öncə müvafiq təhsil səviyyəsi üzrə tələb olunan bütün sənədlərin elektron surətlərini hazırlamağınız tövsiyə olunur. |
| **Müraciətin izlənməsi:** | → | Namizədlər müraciətlərini “Şəxsi kabinet” üzərindən izləyə bilərlər. |

| | | |
|---|---|---|
| **Seçim mərhələləri:** | → | Namizədlərin seçimi iki mərhələdən ibarətdir. İlk mərhələdə tələb olunan sənədlərin skan edilmiş surətlərini portal.edu.az veb-səhifə üzərindən əlavə edib, **ərizəni təsdiq etməlidir.** Birinci mərhələni uğurla başa vuran namizədlə **müsahibəyə** dəvət olunacaqlar. -<br><br>**DİQQƏT!!** Aşağıdakı hallarda namizəd müsahibəyə **buraxılmır** : |

| | | |
|---|---|---|
| | | • **Müvafiq seçim qaydalarının** 3.5-ci bəndi nəzərə alınmaqla, 3.2.1-ci və 3.2.2-ci yarımbəndlərində göstərilən sənədlər natamam təqdim olunduqda və ya həmin sənədlərdə uyğunsuzluqlar aşkar edildikdə;<br>• **Müvafiq seçim qaydalarının** 2.3.1-ci yarımbəndində göstərilən qaydada aparılmış qiymətləndirmə nəticəsində namizədin seçim meyarlarına uyğun olmadığı müəyyən edildikdə. |
| | | |
| **Son müraciət tarixi:** | → | • **05.06.2026, saat 18:00** |
| | | |

| | | |
|---|---|---|
| **Müqavilə formas ı:** | → | Dövlət Proqramı çərçivəsində bakalavriat və magistratura üzrə təhsil almaq hüququ qazanmış şəxslərlə 2 tərəfli (Elm və Təhsil Nazirliyi və proqram iştirakçısı) müqavilə imzalanır. Proqram iştirakçısının təhsilinin maliyyələşdirilməsi sözügedən müqavilə əsasında həyata keçirilir.<br>Dövlət Proqramı çərçivəsində doktorantura səviyyəsi üzrə təhsil almaq hüququ qazanmış şəxslərlə 3 tərəfli (Elm və Təhsil Nazirliyi, proqram iştirakçısı və razılıq məktubu təqdim etmiş yerli ali təhsil müəssisəsi) müqavilə imzalanır. Proqram iştirakçısının təhsilinin maliyyələşdirilməsi sözügedən müqavilə əsasında həyata keçirilir. Müqavilə forması təsdiq edildikdən sonra dp.edu.az saytına yerləşdiriləcəkdir. |
| | | |
| **Ətraflı məlumat:** | → | Ətraflı məlumat dp.edu.az saytına və ya **FAQ/MVS** keçid edilərək əldə oluna bilər. |
| | | |
| **Əlaqə vasitəsi:** | → | Dövlət Proqramı ilə bağlı suallar dp22-28@edu.gov.az elektron poçt ünvanına yönləndirilə bilər. |

# Xüsusi qeydlər

**Dövlət Proqramı çərçivəsində aşağıdakı şərtləri özündə ehtiva edən şərtli qəbul sənədləri dəyərləndirilməyə uyğun hesab ediləcək:**

| Təhsil səviyyəsi | Şərtlər | Qeyd |
|---|---|---|
| **Bakalavriat** | Attestat/arayış | |
| | Attestat balının nəticəsi | "Ehtimal olunan" qiymət təqdim olunmaqla |
| | "Foundation" proqramının nəticəsi | "Ehtimal olunan" qiymət təqdim olunmaqla |
| | Beynəlxalq Təhsil Proqramının nəticəsi | "Ehtimal olunan" qiymət təqdim olunmaqla |
| **Bakalavriat / Magistratura/ Doktorantura** | Depozit | |
| | Maliyyə öhdəliyinə ("Financial declaration") | |
| **Magistratura** | Transkript | |
| | Transkriptdəki qiymət - ÜOMG | "Ehtimal olunan" qiymət təqdim olunmaqla |
| | Bakalavriat diplomu | |
| | | |
| **Doktorantura** | Transkript | |
| | Transkriptdəki qiymət - ÜOMG | "Ehtimal olunan" qiymət təqdim olunmaqla |
| | Magistratura diplomu | |

**Yuxarıdakı şərtlərdən əlavə şərtləri özündə əks etdirən şərtli qəbul sənədləri dəyərləndirilməyəcək.**

## Diqqət edilməli məqamlar

- Xarici ali təhsil müəssisəsindən əldə edilmiş rəsmi qəbul sənədlərində imza, möhür və ya QR kod, təsdiqedici keçid olmalıdır;
- IELTS sertifikatı sənədin əldə edildiyi qurum tərəfindən imzalanmalı və möhürlənməlidir;
- Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) 100 ballıq şkala üzrə təqdim edilməlidir;
- Xarici ATM-də təhsil alan namizədlərin sənədlərində bəzən ÜOMG (100 ballıq şkala üzrə) qeyd olunmur, bu halda ekvivalentlik göstərən sənəd təqdim edilməlidir. (Namizəd ekvivalenti xarici ATM-dən əldə etməlidir, ÜOMG arayış və ya transkriptin sonuna qeyd edilə bilər)
- Tövsiyə məktubları Elm və Təhsil Nazirliyi və ya Dövlət Proqramı İdarəetmə Qrupuna ünvanlanaraq yazılmalı, təqdim edildiyi tarixdə son 6 ay ərzində əldə edilmiş olmalıdır;
- Sağlamlıq haqqında arayışın etibarlılıq müddəti qüvvədə olmalıdır; Xaricdə təhsil alan namizədlər təhsil aldıqları ölkənin tibb müəssisəsindən sağlamlıq arayışı təqdim edə bilərlər;
- Əgər namizədin qəbul aldığı ali təhsil müəssisəsi ondan qəbul məktubuna cavab olaraq razılıq (“offer acceptance”) tələb edirsə, bu zaman həm qəbul məktubu, həm də namizədin razılığını təsdiqləyən müvafiq sənəd (bildiriş və ya ekran görüntüsü) birlikdə təqdim olunmalıdır;
- Şəxsiyyət vəsiqəsinin hər iki üzü əlavə edilməlidir;
- Sənədlər elektron sistemə PDF formatında yüklənilməlidir.